# Ümumtürk Edabiyyatı Araşdırıcısı: Əmin Abid

**Eli Şamil Hüseynoğlu**
*Azarbaycan Milli Ensiklopediyasında*
*"Türk xalqlarının tanınmış adamları" qrupunun rehberi*

***Özet*** *Son iller türk xalqlarının araşdırıcıları va başka paşa sahipleri tez-tez bir araya gelirler. Onlar gah tarihin derinliklerine iner, gah da günümüzün reallıklarını inceleyirler. Belli bir zamanda bu yolda hidmati olan İnsanların unudulması, xatırlanmaması qüsur sayılmalıdır.*
*Hidmeti unudulan insanlardan biri da Emin Abiddir. Çok teasssüf ki, bu fedakar ziyalının adı doğumunun 100.cü ilinde da anılmadı, heç bir yerda doğum günü qeyd edilmedi. 1938-ci ilde Sovet irticasının qurbanı olan emin Abide ölümünden 24 il sonra beraat verdiler, aslında bu, fiziki beraat idi. Stalinln Ölümünden sonra sosializm quruluşunun doğurduğu bütün nöqsanlar onun adına yazıldı. Kommunist partiyasını va onun yaratdığı sosializm sistemini xilas etmak üçün axıdılan qanlar, edilen qeddarlıqlar bir nafarin adına yazıldı.*
*1956-cı ilde, SSRİ-da 1920-1940-cı İllerde habs edilmiş, güllelenmiş insanların ekseriyyetina beraat varildi. O illerde hebs edilmiş yüz minlerla insanın çoxu ağır şeraite dözmeyib ölmüşdü. Sağ qalanlarsa cemiyyatdaki nöqsanlara qarşı mübariza apara bilacak durumda deyildi. Sözde beraat e'lan edilse da, hebs edilenlere ve güllelananlera deyen zarar ödenilmedi. Yazıcı va şairlerin, araşdırıcıların eserlerinin tam yayınlanmasına icaza verilmedi. Bir qrup müellifin yalnız seçme asarleri neşr edilirdi. Milli şuurun oyanmasına gücü takan vere bileceyindan qorxan Sovet ideoloqlan* A. *Abida beraat versalar de onun meqala ve serlerinin tekrar çapına icaze vermediler.*

***Anahtar Kelimeler:*** amin Abid, Ortaq Türk kültürü, edabiyyat tarbci, milli şuur.

---

## Giriş

Emin Abide bereat gec-af-ümumi elan edilenden altı il sonra 1962-ci il dekabrın 21-da verildi *(SSRİ Herbi Prokurorluğu).* 1898-ci ilde Bakıda doğulan Abid Mütellib oğlu Ohmedov ilk tehsilini anası Reyhanın evde açdığı mektebde almışdı. Onu yaxından tanıyan, 1930-cu ilde DTK (KGB) terefinden hebs edilerek istintaqa celb edilen Azerbaycan Politexnik İnstitutunun Türk Dili müallimi, dosent elesger eliyev DTK müstentiqinin sualına cavab olaraq deyib: "Əmin Abidi men uşaqlıqdan özüm kimi tanıyıram. Onun esi adı Zeynalabdin Mütalübovdur. Ne üçün o Əmin Abid oldu? Əmin sözü Türk yönlülüyüne va müsavatın lideri Memmed Əmin Resulzadeye hörmet ve ehtiramın ifadesidir *(Azerbaycan Milli Tehlök&sizlik Naziriiyinin ancivi N32796).* Zeynalabdini yeniyetme iken metbuatdakı maqale ve serlerinde, tercümelerinde qısaca Abid kimi işletmişdir, beleiikle Əmin Abid kimi tanınmışdır. Anasının uşaqlar ve evdar qadınlar üçün teşkil etdiyi mektebde elifbanı, "Quran" oxumağı, elece de Sedinin "Gülüstan", "Büstan" ve b. esarlerini oxumağı öyrenen Əmin Abid tehsilini Rusiyanın yerli xalqlardan özüne xidmet edecek kadrlar haziriamaq üçün açdığı gimnaziyada davam etdirmişdi. Bu mektebda dersler yalnız rusca keçilirdi. Muallim ve şagirdlerin yerli xalqların dillerinde danışması yasaq idi. 1912-ci ilden başlayaraq Bakıda, Tiflisde, İravanda neşr olunan qezet ve curnallarda türkce maqaleler, hekayeler, şe'rlar ve tercümeler çap etdirmeye başlamışdır. Onun ister tercümelerinde, isterse de özünün yazdığı şer ya hekayelarda çoşğun bir millatseverlik var.

Bes 14—15 yaşlı yeniyetmede bu millatseverlik, yurdseverlik, coşğunluq hardandır?

Böyük qardaşı şair Əli Abbas Müznib ailelerini bele tesvı'r edir; "Anam ötkün fikir, keskin zekaya malik, eqlli, kamallı, ev idaresini bacaran, iqtisadi cahetce anlar bir qadındır. 91 saneti mahir olduğundan axşamlar altunbaşlıq, yaxalıq, başmaq üzü tikar, gündüzler ders vererdi. Bu gün evimizin, ailemizin quruiuşuna bais anamdır. Atam sırf avam, cahil, davakar, xeyir-şarini bilmez, fana huylu bir erkakdir. Bununla barabar atam övladlarının savadlı olmasını ister, var qüwesini de bu yola sarf ederdi" *(Azerbaycan Elmlar Akademiyası elyazmalar İnstitutunun ancivi).* Atası Mütellib daşyonan usta olsa da, bu neslin şeceresi sonuncu Bakı xanı Hüseynqulu xana bağlanır *(Ağayev, 1998).* 19-cu yüzilin başlanğıcında Azerbaycana hücum eden Rus ordusuna gürcü kökenli general Sisianov başçılıq edirdi. O, Gencede güclü müqavimatla qarşılaşdı. Bütün hedalerine va mekrlerina baxmayaraq,

Cavad xan Ziyadoğlu qalanı ruslara teslim etmedi. Odlu silahlarla yaxşı silahlanmış rus ordusu qalanın qehreman müdafieçilerini qan içinde boğdular. Ramazan bayramı günlerinde rus qoşunları Genceni aldılar. Seher xarabazara çevrilmiş, eli silah tutan kimse sağ qalmamışdi. Dövüşlerde Cavad xan ve oğlu şehid oldu. Bu olaydan 16 ay sonra Sisianov Bakı qalasıns mühasireya aidi. Qalanın ağıllı ve cesur müdafieçisi Hüseynqulu xan Bakî qaiasının giriş qapısı yaxınhğında general Sisianovun başını kesdirdi. Çarizmin bütün teqib ve tezyiqlerine baxmayaraq bu ailede işğaiçılara qarşı derin bir nifret olmuşdur. Daşyonan Mütellibin üç oğlu haqqında — böyük oğlu şair, tercümeçi, curnalist, naşir 8li Abbas Müznib (1883—1938), ikinci oğlu naşir Əbülfez, üçüncü oğlu ise Zeynalabdin haqqında qaynaqlarda bilgiye rast geldik. 1905-ci ilde Rusiyada baş vermiş inqilabdan sonra recim laxiamış, müstemleke altında qalan xalqlara ana dillerinde mekteb açmalarına, qezet ve curnal neşr etmelerine qoyulmuş engeller azalmış, senzor nezareti zeiflemişdi. Bu imkandan istifade eden arabadüzelden şair Əli Abbas Müznib dövri metbuatda ardicıl çıxış edir. 1909-cu ilde neşre başlayan satirik "Zenbur" curnalmın aparıcı müelliflerinden biri, 1910-cu üden ise redaktörü olur. "Zenbur" bağlandıqdan sonra Əli Abbas Müznib "Şahabi-sakib" (Yandıncı yıldınm) adlı derginin neşrine icaze alır. Lakin bu derginin de ömrü çox qısa olur.

1911-ci ilde çar Rusiyası müstemlekecilik aleyhine yazdığı şer ve meqalelere göre Əli Abbas Müznibin neşr etdiyi dergini qapadır, özü de Sibire (Sibirya: Keçmiş Sovetler Birüyindo böyük bir bölge adı. Bu yerler öz adını Türklerin Savir, Sabur tayfalarının adından almışdır. Ruslar buranı 17-ci yüzilde işgal etmeye başlamışlar. Sibirde insanlar seyrek yaşadığından, qış uzun sürdüyünden, yaşam sertleri çetin olduğundan Rusiya hökumeti burada çoxlu hebsxanalar ve sürgün yerleri yaratmışdı.) sürgün olunur. 1913-cü ilde Romanovlar sülalesinin Rusiyada hakimiyyete gelmesi münasibatiie verilen böyük evfi-ümumi (amnistiya) Əli Abbas Müznibe de şamil edilir. Şair vetenine dönüb yaradıcılığını davam etdirlr.

**Milli Şuurun Formalaşması**

Bele bir ailede böyüyen Əmin Abid gene yaşlarında Abid, Abid Mütellibzade, Abid Mütellib oğlu, Abid Alp Mütellib oğlu, Qozqurab bey ve b. imzalarla 40 müellif vereqi hecminde bedii yazılar çap etdirir.

1918-ci il mayın 28-da Osmanlı Ordusunun yardımı ile Azarbaycanda Milli Hökümet qurulur. Rus işğalçılan müweqqeti da olsa Qafqazdan al üzmeli olur. Yeni qurulmuş hökümet amin Abidin arzularının reallaşmasına vesila olur. O, maarif komissariığına ariza yazaraq İstanbulda tahsil almağa getmak istayinda olduğunu bildirir *(Azerbaycan Elmlar Akademiyası elyazmalar İnstitutunun arxivi).* Arzusuna çatan 3min Abid önca İstanbulda "Darül-müallimin-aliye"yi bitirib. 1921-ci ilde vatana dönür. Burada böyük dayişikliklar baş vermişdi. Milli Hökümat devrilmiş, Rusiya 1920-ci ilin aprelin 28-da bolşeviklarin rahbarliyi ila Azarbaycanı işgal etmişdi. Milli düşünceli insanların çoxu güllelanmiş, habs edilmiş, yaxud öikaden qaçmaq zorunda qalmışdı. Yeni maktablar açılsa da orada ders deyecak muallimler, derslikler çatışmırdı. Xarici öfkelerden, xüsusen de Türkiyaden müellimlar va başqa peşa sahibleri davet edilmişdilar. Bele bir çetin vaziyyetde amin Abid ayda 35 ABŞ dolları taqaüdla İstanbul Darülfünunda oxumağa gönderilir *(Azarbaycan Milli Tahlükesizlik Nazirliyinin arxivi N32796).* Azarbaycanın ali va ümumtahsil mekteblerinin dersliye olan tafebatını ödemak üçün asasan rusca yazılmış kitablar tercüma edilirdi. Azarbaycania bağlı olan derslikler isa yeni yazılmalıydı. Azerbaycan SSR Xalq Maarif Komissarlığı ali va orta mektablarda müallim ve talebelerin "Azarbaycan edebiyat tarihi" darsliyina olan telebatını ödemak üçün Firuddin Köçerlinin "Azerbaycan adabiyyatı"ni (1) va Hüseyn Qaibovun "Azerbaycanda meşhur olan şüeranın eş'arına mecmuedir" (2) (eserini bir neçe yazıçıya va tecrübeli pedaqoqa vererek, çap üçün hansının daha münasib olduğunu öyrenmek isteyir (*Azerbaycan Milli Tehlükesizlik Nazirliyinin arxivi, sayı 269342).*
Türkiyeden davet edilmiş İsmayıl Hikmete (3) va İstanbul Darülfununun edebiyyat fakültesinde oxuyan emin Abide da edebiyyat tarixi yazmaq tapşırılır. emin Abid Türkiyenin, İranın, Qafqazın kitabxanaları,arşivleri ve şahsi kitabxanalarla kifayetlenmir. Budapeşt ve Vyanada elmi ezamiyyetda olur, meşhur türkoloqlarla görüşüb onlardan meslehetlar alır. O, İstanbul va Ankarada çap olunan dergilerde Azerbaycan edebiyyatına aid meqaleler yazmaqla, "Türk ocağı"nda feal iştirak etmekla kifayatlenmir (*Şahbazov, 1926).* Memmed amin Resulzadenin rehberlik etdiyi Azerbaycan mühacirlerinin toplantılarına qatılır, çap etdirdiklari "Yeni Kafkasya" dergisinde gizli imzalarla şerlerini ve meqaielerini yayınladır *(Azerbaycan Milli Tehlükesizlik Nazirliyinin arxivi N32796).*

emin Abidin Azerbaycanda basılan ilk sanballı elmi meqalesi "Azeri edabiyyatında türkcenin takamülü"dür *(Abid 1926).* Dargi onu aşağıdaki qeydle yayınlamışdı: "İstanbul Darülfünunun edebiyyat fakültasini bitirmakda olan vatandaşımız Əmin Abidin bu birinci meqalasini kamal-mamnuniyyatla derc ediyoruz. Meqalede ustadı olan möhteram professor Köprülüzadanin telebesl olaraq tesiri hiss edilmekdedir. Bununla beraber 3min Abid arkadaşımızın bu evvalinci meqalesi kendisinin da yeni Avropa elmi sistemi elda edib mühakimasini tamamila elmi asaslar üzerinda qurmağa cehd etmesi, söylediyi fikirleri har cüra neql şeklinden çıxararaq elmi tarzda söylemesi meqale sahibi üçün qiymetli meziyyatlardandir", Araşdırma eslinda Oğuz Türklari, onların yayılma

,

adabiyyatlan, dilleri haqqındadır. Dövrü üçün olduqca garekli va önemli olan araşdırmada yanlışlıqlar da az deyil. Yazar sonraki araşdırmalarında yanlışlıqlarını samimiyyatla etiraf etmiş, onları düzeltmeya çalışmışdır. Hatta başqa araşdırıcıları da bela yanlışlığa yol vermemaya çağıraraq yazır: "Azerbaycan türkcesinin hicri yeddinci ve sekkizinci asrda başlaması fikri professor Köprülüzadenindir. Azarbaycanda Türkler terefindan vücuda getirilen "feodallaşdırmanın" iqtisadi inkişafına uygun olmayan bu iddianı yanlış olaraq ilk defe matbuatımızda onun (4) talabesi olmaq sifetiyla men naql etmişdim. Halbuki sonradan... adabiyyatımızın tedqiqine başlayınca, herekatimin qetiyyen doğru olmadığını ve yeni bulduğum vasiqalarin da bu yanlışlığı meydana çıxardığını anlamaq mümkün oldu. İsmayıl Hikmetin de menim ilk veziyyetim kibi eyni tesire qapıldığı görünmekdedir" *(Abid 1929).*

**Sovet Rejimine Qarşı Elmi Mübarize**

emin Abidin İstanbul Universitetinda oxuyarken yazdığı bir meqale böyük mübahiseye sebeb oldu. O, alleqorik "Söhbetül-esmar" ("Meyvelerin söhbeti") mesnevisinin 16-cı yüzilde yaşamış Mahammed Füzuliya aid olduğunu söyleyirdi *("Söhbetül-esmar" Füzulinindirmi?" 1981).* Prof. Fuat Köprülüzade ise bunu bir yanlışlıq sayırdı. Belaca müallim taleba arasında dartışma başlamışdı. Bu dartışmanı eziz Mirehmadovla Sabir eliyev 1981-ci ilde davam etdirmişler. e. Abid yalnız müellimi, eqide ve qelem dostları ila deyil, elmda yanlışlığa yol vermiş an nüfuzlu teşkilatlarla bela mübahiseye girişmakdan çekinmemişdir. Onun "Böyük Şura Ensiktopediyası va Türk edabiyyatı" *(Abid 1929),* "Zararli tenqidler" *(Abid 1929)* meqaleleri dövrü üçün olduqca cesaretli idi. Moskvada yazılmış ve çap olunmuş her hansı bir meqale, kitab eyaletlerde yol gösterici,

yöneldici bir sened sayıldığı vaxtda Əmin Abid Sovetierin strateji planına qarşı çıxaraq yazır: "Nümunaferi Azerbaycan edebî Türkcesinden deyil, kend şivelerinden alan akademik (meqale müellifi Türkoloq, V.Kurq-Krayjin nezerde tutulur - Ə.Ş.) mahalli şiveleri edebi Osmanlı lisanı ila müqayise ederek aralarında qayet böyük bir ferq göstermekdadir... bu heç de doğru netice verecek rnüqayise sayıla bilmez".

Əmİn Abidin bu narahatlığı sabebsiz deyildi. O, çar Rusiyasının Azerbaycan Türklerini soydaşları va qan qardaşları olan Osmanlı Türklerinden, eleca de başqa soydaşlarından ayırmaq üçün hansı siyaset yeritdiyinden xeberdar idi. Doğuda "Birinci Deli Petro" kimi tanınan Rusiya çarının işğalçılıq planı ilk defa onun çalışdığı ve böyük qardaşı eli Abbas Müznibin redaktoru olduğu "Dirilik" dergisinde çap edilmişdi *("Dirilik" dergisi, 1914). O,* Sovetlar Birliyinin sözda çarizmi durmadan inkar etmesine baxmayaraq, milli masalede onun planlarını hayata keçirdiyini aydın görürdü. Buna göre de bütün yazılarında bu ve ya başqa şekilde onlara qarşı dururdu.

Böyük Sovet Ensklopediyasının sekkizinci cildinde akademik Marrın "Azari lehcesinin ayrı-ayrı danışıq terzlari arasındaki farq, çox böyük olmaqla baraber, bütün Azerbaycan Türkleri bir-birlarini anlamaqda güclük çekmirler" fikrine, "Azerbaycan edebiyyattnın Sefeviler zamanından başlaması" fikrine, elaca de başqa yanlışlıqlara sert tepki göstarir.

1929-cu ilin iyulunda Moskvada çap olunmuş Peçat i revolyutsiya" (Medya va inqilab) dergisinde eli Nazimin "Azerbaycan edebiyyati" adlı bir maqalasi çıxır. emin Abide göra bu müellifin "İnqilab va madeniyyaf (Bakı), "Dan yıldızı" (Tiflis), Türk Yurdu" (İstanbul) dergilerinde çap olunmuş meqalelerinin ruscaya tarcümesidir. Dergi, Sovetlar Birliyinin stratejisini yöneten bir neşr olsa da, Ə. Abid ona qarşı durmaqdan çakinmir. Azerbaycan edebiyyati tarixini 13-cü yüzüda yaşamış Hesenoğlu ile başlamağı yanlış sayır. Hasen-oğludan önce Veys oğlu ehmedin, Şems Tebrizinin olduğunu söylayir. edabiyyat tariximizin miladi 7-ci yüzilden başladığı hökmünü verir. "Oğuzname"ni yazılı va şifahi edabiyyatımızın başlanğıcı sayır.

eli Nazimi proletar edabiyyatı metodlarını, marksizmî bilmamekda teqsirlendiran Ə. Abid, özü da bunlardan uzaq bir metodologiya ila edabiyyat tariximize yanaşaraq yazır: "eli Nazim böyük edibimiz M. F. Axundovu Türk xalqiarı edebiyyatının gedişi izinde tedqiq etmeyi bir paniürkizm ideologiyası kimi qabul edir ve bu nöqteyi-nezarden M.Feteliye aid yapılan bezi tedqiqlere hücum edir".

Ə.Abida göra "Bir adabi dövr va yaxud bir adabı sima haqqtnda doğru netice çıxarmaq üçün onun bahralandiyi ictimai va edabi şartlari araşdırmaq lazımdır". Odur ki, M. Fetelinin ümumtürk adabiyyatının inkişafında rolunu doğru müayyaniaşdira bilecek taktları ortaya qoyur.

Araşdırıcı keçmişda yaşayıb-yaradan edebi simaların deyil, çağdaşı olan Nazim Hikmetin yaradıcılığına da ümumtürk edebiyyatı baxımından yanaşmağı vacib sayaraq yazır: "...Bu gün Azerbaycan, Türküstan, Tatarıstan, Krım, Türkiye matbuatında Nazim Hikmet haqqında bir çox tahliller yapıldığını, eserlerinin tekrar edildiyini va ona nazireler yazıldığını görmekdeyik. Bu ne demekdir? Bu Azerbaycan proletar edebiyyatında ilk defa özünü göstermiş olan Nazim Hikmetin bütün türk xalqlart adebiyyatı üzerinde tesire başladığını gösterir. Buna göre N.Hikmeti bir tenqidçi va yahud edebiyyat tarixçisi ümumtürk edebiyyatının gedişi izinde tedqiq etmezse, onun edebi mövqeyini xeyallaşdırmış olur".

Tiflisde yayınlanan Zaqafqaziya Merkezi İcraiyya Komitesinin orqanı "Yeni fikir" qezetine 1926-cı ilde İstanbuldan gönderilmiş bir maqalade oxuyuruq: "İstanbul Darülfününun edebiyyat fakültesini bitirmek üzre bulunan talebelerden emin Abid yoldaşın mazuniyyat "tez"i olaraq vücuda gatirdiyi "Azeri Türk edebiyyatı Tarixi" nam eseri darülfünun imtahan heyeti tarafından kabul edildi. Elmi üsullara istinaden yazılan bu tatabbönama "Meclis müderrisün" (professorlar meclisi) tarafından teqdir edilarak teb olunmasına qerar verilmişdir. Darülfünunda qebul edilen eseri kitabının son asra aid yalnız bir cildidir. Ümumi eser altı cilddan ibaretdir. Azeri lehcesinin zühur etdiyi tarixden asrimize qadar Azerbaycanda cereyan edan fikri ve edebi harekat, son sosioioji metodları nezar-etibare alınaraq müqayisaii tehlii ve tarkib üsullarına istinaden tadqiq edilmişdir.

eserin bir xülasasi ganc macar müstaşriqlerinden Madam Margit-Pallu terefindan macarcaya tercüma edilen emin Abid Azerbaycan Sosiaiist Şura Hökumeti terafindan Avropa darülfünunlarında oxudu-lan gancların an çalışqanıdır *(Şahbazov 1926).* Bu qeydlerden va qezetde yayınlanmış başqa yazılarından Əli Şahbazovun neinki emin Abidi, ham da İstanbul Darülfünunu yaxşı tanıdığı aydın görünür. Başqa qaynaqlar da Əmin Abidin altı cildük edebiyyat tarixi yazdığını tesdiqiase da, onu bu günedek tam şekilda aide ede bilmemişik.

Çoxcildlik edebiyat Tarexinin ideyası 1970-ci ilde Bakı Devlet Universitetinde oxuyarken e.Abidin qardaşı ali Abbas Müznibin büyük oğlu Hüseyn Necdetin (5) xanımından xeyli elyazma alıb Azerbaycan Devlet ve İncasanet Arxivine verdik. Bunların çoxu Əmin Abidin alyazmaları idi *("Maarif İşçisi" dargisi, 1927).*
Hemin arxivde 3.Abidin qara mürekkeble, arab elifbası ila saliqeli yazılmış, düzelişler ve alaveler edilmiş "Azerbaycan türklerinin edebiyyatı tarihi" eseri saxlanılır. Əlyazma 316 sahifedir. Əsas hissesini "Kitabi-Dede Qorqud"un araşdınlması teşkil edir. e .Abid bu ölmez abideni "Oğuzname"nin bir hissesi kimi öyrenir. Neinki türkdilli qaynaqları, hetta Avropalı şerqşünasların, seyyahların qeydlerini ortaya qoyur, Kilisli müallim Rüfatin düzgün oxuya bilmediyi bir çox sözlerin Azerbaycan türkcesinda oxunuşunu verir *(Azerbaycan Dövlet edabiyyat ve İncesanat Arşivi, fond 170).* 1928-30-cu illerde da onun Azerbaycanda "Kitabi-Dade Qorqud"un öyrenilmesi ila bağlı iki meqalesi çap olunur. Bununla Azerbaycanda Qorqudşünaslığın esası qoyulur. Ə.Abid dastanın elyazmasında bezi sözleri Azerbaycan türkcesinde oxusa da toponimlerin Azerbay-canda ve ona yaxın bölgelerde olduğunu gösterse da, mehelülikden çox uzaq olub "Kitabi-Deda Qorqud"u ümumtürk abidesi kimi araşdırır.
emin Abid Bakıya döndükden sonra coşğun elmi, pedaqoji fealiyete başlayır. Bakı Pedaqoji Texnikumunda ders deyir, Bakı Darülfünunda, Baki Maarif Evi edebiyyat derneyinde edebiyyat tariximize dair mühazireler oxuyur, Bakıda, Tiflisde, Darbandda, Semerqendde, Ankarada yayınlanan dergi ve qezetlerde araşdırmalarını yayınladır. Bu, çox sürmür. Çünki 1917-ci il oktyabr devriminden sonra kommunistler hakimiyyeti ele alsalar da, quracaqları dövletde aile, axlaq, tahsil, terbiye, edebiyyat, senet haqqında aydın tasevvürieri yox idi. Ölkeni bir yenilik axtarışı dalğası bürümüşdü. Keçmiş az qala tamam inkar edilirdi. Hetta fabriklari, demiryolunu ve s. söküb yenisini qurmaq kimi çağırışlar da eşidilirdi. Özlerini kommunistlere daha yaxın sayan edebiyyatçılar köhna "nezm sifetleri"ni "sufi şeri", "iylenmiş, qoxumuş", "ibtidai", hetta "qeyri-medeni" hesab edirdilar. Bezilen da "Biz üzümüzü Füzulilere, Nesimilara, Vaqiflere, Mirza Fetelilara, Hüseyn Cavidlare doğru deyil, Verxarnlara, Uitmenlere, Jül Romenlera, Mayakovskilera ve bütün dünya klassiklarine çeviririk" yazırdı *(eliyev 1983).* Bele bir mühitde Əmin Abid "Ali mekteblarda Azerbaycan edebiyyatı", "Heca vezninin tarixi", *(Gülen Adam; Serbast şer haqqında ilk söz 1929)* "Derebeylik dövründa Azeri edebiyyatı" *(Abid*

*1927),* "Mirza Fatali Axundovun türk edebiyyatında mövqei ve tesis etdiyi edebi mekteb" ("Maarif ve medeniyyet dergisi, 1927), "Türk xalqiarı edebiyyatında mani nevi ve Azerbaycan bayatılarının xüsusiyyetleri" *("Maarif işçisi" dergisi, 1928),* "Firdovsi ve Azerbaycan edebiyyatı" (*"Azerbaycanı öyrenme yolu" dergisi, 1930)* ve b. meqalelerini çap etdirirdi.

"Heca vazninin tarixi (edebiyyat teoriyası haqqında)" maqalasinde e. Abid Turfan abidelerindeki yazılardan günümüzedek heca vezninin keçdiyi yolu izleyir. Kaşqarlı Mahmudun "Divani Luğat-it türk"den, Yusif Xas Acibin (Balasaqunlunun) "Qudadqu Biig"inden, ahmed Yasevinin "Divani-Hikmet'inden nümuneler verir. Yunis İmrenin, Xetainin, Karemin, Oaracaoğlanın, Kuhinin, Vaqifin, Derdlinin, Mahtumqulunun, Mahemmadaiinin ve b. yaradıcılıq yolunu qarşılaşdirmalı şekilde araşdırır, bu mövzuda ondan önce söz demiş türkoloqların fikirlerine dayanır, bezen onlarla da dartişmaya girir. Konunu o qeder gözel araşdırır ki, bunu diqqetle oxuyan genc qelem sahibi çetin ki, öz kökünden, soyundan ayrılsın. emin Abid "Türk xaiqları edebiyyatında mani nevi ve Azerbaycan bayatılarının xüsusiyyetleri" meqalesinde beş min bayati-manini qarşılaşdınr. Turfan, Altay, Özbak, Mişer, Kazan, Krım, Qaqauz, Anadolu, İraq, Dağıstan türkleri arasında geniş yayılmış yeddi hecalı dörd mısralı şer şeklini onların ekiz qardaşı olan Azerbaycan bayatıları ile qarşılaşdırır, hamisinin eyni qaynaqdan behreiendiyini inandırıcı delillerle sübut edir. Hammer, İqnat Koş, V. Radlov, M. F. Köprülüzade, Haşım Nahid, Salman Mümtaz, Samoyloviç ve b. tanınmış araşdırıcılarla yanaşı, bu konuda bir-iki setir yazanların fikirlerine da sayğı ve diqqetle yanaşır.

emin Abidin bu araşdırmaları xalqı soykökünden ayırmaq isteyenlere tutarlı cevab, genc qelem sahiblerini yolundan azdırmaq isteyenlere olduqca güclü müqavimet idi. Bunu aydın başa hakimiyyet daireleri onu her vasitayle sıxışdırır, işden sıxanr, teqib edirdi.

1929-34-cü illerde merkezden uzaqlarda Qubada, Ağdaşda, Ağdamda texnikumlarda, ümumtehsil mekteblerinda ders demeli olan emin Abidi 1934-cü ilde Bakıya SSRİ Elmler Akademiyasının Azerbaycan fılialına işe gatirmeli olurlar *(Azerbaycan Elmler Akademiyası Qolyazmalar Institutunun antivi).* Çünki, hamin dövrde Azerbaycan Kommunist Partiyası M. F. Axundovun taradıcılığındaki din aleyhine, elifba aleyhine ve s. fikirleri öz ideologiyasına yaxın bilib eserlerinin çoxcildliyini hazırlamağı, yubileyini keçirmeyi planlaşdırmışdı. Bu ağır ve üzücü işin öhdesinden emin Abid qeder layiqince gele bilecek araşdırıcı az-az tapılardı. "Maşhur dramaturg

ve filosof Mirze Feteli Axundovun eserlerinin türkce ve rusca çapa hazırlanması eli Nazimle emin Abide tapşınldı. Onlar M. F. Axundovun üç cildlik eserlerini neşre hazırlayıb geniş ön söz ve şerhler yazsalar da, 1937-ci ilin irticası kitabın işıq üzü görmesini engelledi (*Azerbaycan Devlet edebıyyat ve İncesenat Arşivi, fond 170).*
Bu kitaba emin Abidin 1935-ci ilde yazdığı ön söz Azerbaycan Devlet edebiyyat ve İncesenat Arcivinin 170-ci fondunda saklanılır. Makinada latın qrafikası ile yazılmış ön söz 300 sehifedir. Buna baxmayaraq, Ə.Abidin dövrü metbuatda çap olunmuş 10-a yaxın meqalesi axundovşünaslığın inkişafına güclü tekan verdi. İlk defe Ə. Abid *M.* F. Axundov haqqında Avropa, Rusiya, Türkiye ve Azerbaycanda çap olunanları qarşılaşdırdı, yanlışlıqları ortaya qoydu. Hem de ona hakim ideologiyanın baxışından ferqli bir baxış formalaşdırdı. Ə.Abide göre, M. F. Axundovun yaradıcılığını düzgün anlamaq üçün ona mütleq türk xatqları edebiyyatı izinde yanaşılmalıdır. Fikirlerini isbatlamaq üçün Azerbaycan, Türkmen, Özbek, Tatar edebiyyatının, tenzimat dövrü üzerinde dayanır, Akif Paşadan, Sedulla Paşadan, Ziya Paşadan söz açır, İbrahim Şinasi ile M. F. Axundovun bir zamanın adamı olduğunu xatırladır *("Maarif ve medeniyyat" dergisi, 1927).*

## Sonuç

Əmîn Abid 1935-ci ilde iş yerine teqdim etdiyi siyahıda elmi tercümelerinden, şerlerinden başqa çap olunmamış eserlerini de gösterir. Bunlardan "Mirza Şefi Vazeh", "M. F. Axundovun aocivinin tasviri", "Azerbaycan folkloru", "edebiyyatımız tarıxinde Sabirin mövqeyi", "Hebibi", "Natevan", "17-ci esr Azerbaycan edebiyyatı" günümüzedek galib çatsa da, araşdırıcıların diqqetini özüne çeke bilmeyib. Lakin iki cildlik "M. F. Axundovun elmi ve edebi görüşleri", "Vaqif, "Azerbaycan" sözü tarixde ve hemin sözle elaqedar Azerbaycan elmi edebiyyatında müxtelif cereyanlar", "Azerbaycan edebiyyatında şer formalarının inkişafı meseleleri", "Azerbaycan edebiyyatşünaslığının inkişafı meseleleri ve bizim metodik sehvlerimiz", "Nesiminin ereb ve farsca şerieri", "Bir daha "Söhbetül-esmar" haqqında". ve b. araşdırmalarından heç bir iz tapmaq mümkün olmadı *(Azerbaycan Elmler Akademiyası elyazmalar İnstitutunun ancivi).*
1937-ci il mayın 23-de SSRİ Elmler Akademiyası Azerbaycan filialının Tarix, Dil ve edebiyyat İnstitutundan (Hemin institut iki il önce SSRİ EA-na müraciet ederek e. Abidin elmi faaliyyatini yüksek qiymetiendirerek ona müdafie etmeden elmler namizedi adı

verilmesini xahiş etmişdi.) işdan çıxarılan Əmin Abid bir il sonra Kürdamir rayonunun Qaraqoyunlu kendinde müellim işleyarken habs edilir *("Maarif ve madaniyyet" dergisi, 1927).* erinin hebs edildiyini göran Nafıa ehmed Şükri-Tevfik Tanur (6) qızı 1938-ci il avqustun 11-da Batumdakı Türkiye konsulluğundan çıXarken hebs edilir (*Gültekin — emin Abid 1999).* Casusluqda ve vetena xeyanetde suçlandırılan her iki vatansevere habsda minbir işgance verilir. Üç aydan sonra 1938-ci il oktyabrın 21-de saat 21 -da 39 yaşlı emin Abid güllelenir *(Azerbaycan Milli Tehlükasizlik Nazirliyinin arxivi).*

Nafia xanımın emelinde, hez bir cinayet tapıb mahkemeya göndara bilmeseler da, 1940-cı il fevralın 19-da imzalanmış bir saneddan gürünür ki, caza müddeti güstarilmaden islah-emak düşargesi adlandırılan hebsxanalardan birine göndariüb *(Gültekin — emin Abid 1999).*

emin Abid bütün ruhu ve varlığıyla ümumtürk adebiyyatina bağlı olub, ortaq nöqteleri arayıb ortaya qoyub. Bu edebiyyatın parçalanmasına, mehalli edebiyyatlar şeklinde öyrenilmesine qarşt durub ve ailesini da özünü da bu yolda qurban verib.

**Açıklamalar**

1 Bu elyazma bayenilerek 1925-26-cı ilierde Bakıda "Azerbaycan edebiyyatı tarixi materiallan" adi altında iki cild, dörd hissade erab elifbası ile çap edildi. "Elm" neşriyyatı, kitabın birinci cildini 1978-ci, ikinci cildini 1981-ci ilde Bakıda kiril elifbası ila yeni redakta, ön söz ve şerhlerle tekrar neşr etdi.

2 Bu elyazma Bakıda 1986-cı ilde bir cildde kiril elifbası ile "Elm" naşriyyatında çap edildi.

3 İsmayıl Hikmet Ertaylan 1920-ci illerde Bakıya davet edilmiş Türkiyeli edebiyyat araşdıncısı idi. Onun 1928-29-cu illerde Bakıda çap olunmuş iki cildlik "Azerbaycan edebiyyatı tarixi" kitabına e. Abid geniş rey yazmışdır.)

4 Azerbaycan medyası nazarda tutulur - e. Ş

5 O texminen 13-14 il ünce ölmüşdü - *e*. Ş.

6 903-cü ilde Yanyada (indiki Yunanıstanda) doğulan Nafia kiçik yaşlarında atası ehmad Şükrini itirir. Anası Zehra Tevfiq Tanura ara gedir. Yeddi yaşında İstanbuldakı Camlıça litseyine daxil olub orada 11 il oxuyan Nafie 1922-ci ilde İstanbul Darülfünunun edebiyyat fakültesine daxil olur. Gancliyinde serler yazan Nafie, şer yazan, ictimai-siyasi işlerde faal iştirak edan emin Abidle tanış olur ve ona ere gedir. e. Abid 1927-ci ilde Bakıya dönende tahsilini başa vurmadan onunla gedir.

**Kaynaklar:**

Abid, E; Azarı edebiyyatı tarixi etrafında, "İnqilab ve medeniyyat" dergisi, 1929, sayı 1,s.46.

Abid, E; Azeri edebiyyatında türkcenin tekamülü "Maarif ve medeniyyet" dergisi, 1926, sayı 2-3, s.17-22.

Abid, E. Zararli tanıdıklar, "İnkilab ve medeniyyat" dergisi, 1929, sayı 10, s.31-34.

Abid, E; Büyük Şura Ensikiopediyası ve türk edebiyyatı, "lnkilab ve medeniyyet" dergisi, 1929, N2, s.37.

Ağayev, İslam; İki rejimin qurbanı — Ali Abbas Müznib, "Xaiq" qazeti, 1998, 4 fevral.

Azarbaycan Elmlar Akademiyası Əlyazmalar İnstitutunun arşivi, Ali Abbas Müznibin arşivi, 37 Q.3(53) fond 1. siyahı 1, saxlama vahidi 55, s.7.

Azarbaycan Elmlar Akademiyası elyazmalar İnstİtutunun arşivi,

Emin Abid Ehmedovun şahsi işi. Azarbaycan Devlet Edebiyyat ve İncesanat Arşivi, fond 170, siyahı 1. saxlama vahidi 1.

Azerbaycan Milli Tehlükesizlik Nazirliyinin arşivi, E. A. Ehmedovun istintaq işi N32796.

Azerbaycan Milli Tehlükesizlik Nazirliyinin arşivi.

Nafia Tevfik Tanur (ham da Ahmed Şükri) qızı Ahmedovanin istintaq İşi, sayı 269342. "Azerbaycanı öyrenme yolu" dergisi, 1930, sayı 4-5, s.9-42. "Dirilik" dergisi, 1914.

Emin, Abid; Heca vezninin tarixi. "Maarif işçisi" cumalı, 1927, N3, s.50-55, N4, S.58-6İ, N6-7, s. 45-62.

Aliyev, M; Edebi tenqid ve vezn problemi, "Azerbaycan Sovet anqidinin problemleri", 1983, ADU neşriyyatı, Bakı, s. 78.

Firdovsi; Şahname, 1934, Azernaşr, Bakı, s. 94-107.

Gülen Adam; Serbest şer hakkında İlk söz, "Maarif işçisi" dergisi, 929, N1.

Gültekin — emin Abid; Buzlu Cehennem, (Tertib edeni ve ön söz: Şamil), Bakı, 1999.

Köçerli, Firuddin; 1978, Azerbaycan edebiyyatı, Elm, Bakı, C. I. "Maarif ve medeniyyet" dergisi, 1927, sayı 4-5, s.42-45. "Maarif işçisi" dergisi, 1927, sayı 3, s.50-55, sayı 4, s.58-61, sayı 6- , s.45-62. "Maarif işçisi" dergisi, 1928, sayı 4, s.40-44, sayı 5-6, s.24-32, sayı -8, s.87-93. "Söhbetül-esmar" Füzulinindirmi? "Azerbaycan" dergisi, 1981, N7, s. 94-201.

SSRİ Harbi Prokurorluğunun Zaqafqaziya İdaresinin verdiyi arayşş. rayışın sureti şexsi arxivimdedir. Şahbazov,e; İstanbul Darülfünunda Azeri edebiyyatı tarixi, "Yeni İkir" qezeti, 1926, 9 yanvar.

# The Investigator of All-Turkish Literature - Amin Abed

Ali Shamil Hussein Oğlu
*The leader of the group in the Azerbaijan Encyclopeâia*

***Abstract:*** Recently the investigators and men of other professions of Turkish peoples have often come together. They either go down the depth of history or investigate the realities of the present day. In such period it must be considered as a fault to forget, not to remember the men who took an active part in this. One of the men whose services are forgotten is Amin Abed. It is so pity that even in his 100$^{m}$ anniversary the name of this selfless intellectual was not remembered, his birthday was not celebrated anywhere. Amin Abed devoted ali of his life to the investigation of all-Turkish literatüre. He has a lot of works about it.
24 years after Amin Abed's death who became a victim of the Soviet reaction in 1938 he was fully exonerated. But in reality that was a physical rehabilitation. After Stalin's death ali the shortcomings that were caused by socialism were written on his name. Blood that was shed, cruelties that were acted in order to save the communıst party and the socialism system that was created by it were written on only one person's name. In 1956 most of the men who were arrested and shot during 1920-1940 in USSR were exonerated. Most of hundreds of per-sons who were arrested during those years could not bear hard condition and died. Those who were alive were not able to struggle against the shortcomings of the society. Although the rehabilitation was deciared in words, the damage to the arrested persons and those who were shot were not paid. The publishing of the works of writers, poets and investigators were not allowed. Only selected works of a group of authors were published.
Although the Soviet ideologists who were afraid of a strong stimulus that could arouse the national consciousness rehabilitated Amin Abed they did not allow publishing his articles and poems again.

***Key Words:*** Amin Abed, Common Turkish Culture, History of Literature, National Consciousness

# Исследователь Тюркской Литературы — Амин Абид

**Али Шамиль Гусейн оглы**
*Руководитель группы "Тю рк халкларынын танынмыш адамлары" Азербайджанской Национальной Энциклопедии*

***Резюме:*** Недавно исследователи и люди других профессий Тюркского мира собрались вместе. Они или углубляются в историю или же исследуют настоящую действительность. В такой период было бы грехом забыть, не помнить человека, который принял в этом активное участие. Одним из таких людей, чьи услуги в этой области забыты, является Амин Абид. Печальный факт, что даже в день столетней годовщины имя такого самоотверженного интеллектуала не было упомянуто, его день рождения нигде не был отмечен. Амин Абид посвятил всю свою жизнь исследованиям в области литературы всего тюркского мира. Он является автором многих работ в этой области. 24 года спустя после смерти Амин Абида, который стал жертвой советской политики 1938 года, он был полностью реабилитирован. Но в действительности это было лишь физической реабилитацией. После смерти Сталина весь ущерб, нанесенный социализмом, был написан на его имя. Амин Абид был обвинен в пролитии крови и в жестокости во имя спасения коммунистической партии и социализма. В 1956 году многие из тех, кто был расстрелян в СССР в 1920-1940 гг. были реабилитированы. Многие из тех, кто был арестован, в то время не смогли вынести тяжелые условия и погибли. А те, кто остались в живых не были в состоянии бороться с недостатками общества. Однако реабилитация была только на словах, ущерб, нанесенный арестованным и семьям тех, кто был расстрелян, не был возмещен. Работы писателей, поэтов инсследователей опубликовать не разрешалось. Были опубликованы только выбранные работы группы авторов. Однако, боясь сильного стимула, который мог бы возбудить национальное самосознание, советские идеологи реабилитировали Амин Абида, но все же публикацию его статьей и стихов не разрешили.

***Ключевые слова:*** Амин Абид, общая тюркская культура, история литературы, национальное самосознание